Sevinc ƏLİYEVA
ADMİU-nun xarici dillər kafedrasının müəllimi

Xarici ölkə peşəkarları ilə ünsiyyət
yaratmaqda beynəlxalq dillərin əhəmiyyəti

Dilin ictimai zərurət əsasında yarandığını hələ antik dövrün filosofları söyləmişlər. Dil - varlığı dərketmə vasitəsidir. O, insanların dərketmə bacarığını inkişaf etdirərək kainatın sirlərini aşkar etməyə şərait yaradır. İnsanlar keçmiş və gələcəklə əlaqəni dil vasitəsi ilə qura bilirlər.

Dil ünsiyyətin əsas vasitəsi olub, nitq prosesi zamanı özünün kommunikativ fəaliyətini həyata keçirir. Onun vasitəsi ilə insanlar bir-birləri ilə əlaqə saxlayır, və bir-birlərini başa düşməyə nail olurlar. İnsanlar arasında əmələ gələn kommunikativ əlaqə özbaşına, təsadüfən yaranmır. O, müəyyən səbəblərdən əmələ gəlir.

İnsanlar arasında olan kommunikasiyanın əsas şərtlərindən biri iki faal tərəfin kommunikator (məlumat verən) və resipientin (məlumatı qəbul edənin) olması vacibdir. Kommunikasiya prosesində informasiya və konkret bir fərdə yaxud kiçik və ya böyük insan kütləsinə verilə bilər.

Ünsiyyət prosesi zamanı kommunikativ vasitələr müxtəlif ola bilər. Bunlar vasitəli, yəni müxtəlif tipli kommunikasiya vasitələri ilə saxlanılan ünsiyyət və ya bilavasitə üzbəüzə gedən ünsiyyət adlanır.

Üzbəüzə ünsiyyətdə nitq mühüm rol oynayır. Verilən informasiyanın qəbul edən tərəfindən asanlıqla başa düşülməsi nitqin məzmunundan asılıdır. Nitqin məzmumlu, qrammatik qanunlara uyğun olaraq qurulması informasiyanın asanlıqla başa düşülməsi üçün əsas şərtdir.

Dilin əsasını təşkil edən sözlər və ifadələr nitq zamanı düzgün seçilib istifadə olunmalıdır. İ.P. Pavlovun sözləri ilə desək: "Söz ən güclü qıcıqlandırıcıdır." Yerində və vaxtında deyilən söz ən çətin işi asanlaşdıra və yaxud əksinə dolaşığa sala bilər.

Canlı nitq, isti ortamda heç bir kəsin müdaxiləsi olmadan aparılan ünsiyyət daha məzmunlu və daha qəlbə yatan olur.

Hər bir insan dünyaya göz açdığı yeri Vətən, danışdığı dili isə Ana dili adlandırır. Ana dili insan ömrünün ilk günlərindən valideyn və ətrafdakı insanlar tərəfindən ona diktə olunan, həyat boyu həm sevincli həm də kədərli anlarının ilk kəlməsinin səsləndiyi dildir. Lakin insan yaşadığı həyatda öz ana dilində sərbəst danışıb fikrini bəyan etməklə yanaşı onun üçün anlaşılması mümkün olmayan dillərlə də rastlaşır. Belə dillər xarici dillər, yəni ocnəbi ölkə xalqlarının ünsiyyət vasiləti olan dillərdir.

Dünyada çoxlu xalqlar və onların hər birinin özünün doğma dili, milli dili vardır. Son hesablamalara görə onların sayı 6000-nə çatır. Bunların bəzisində çox, bəzisində isə az adam danışır. Müəyyən bir zonada bir sıra xalqlar tərəfindən istifadə olunan dillər isə zonal dillər adlanır. Elə dillər də vardır ki, dünya əhalisinin əksəriyyəti tərəfindən işlənir. Belə dillər çox işlənən dillərdir. Qərb dillərindən rus, ingilis, fransız, alman, Şərq dilərindən çin, ərəb dilləri bura aiddirlər. Çin dilində - 800 mln., ingilis dilində - 300 mln., rus dilində -150 mln, alman dilində - 80 mln., yapon dilində 100 mln., ərəb dilində - 85 mln., fars dilində - 60 mln əhali danışır.

Bəzi dillər isə dünya əhalisi arasında ünsiyyət vasitəsi olmaqla bərabər həm də dünya dili səviyyəsini, yəni beynəlxalq dil statusunu qazanmışdır. Çünki beynəlxalq danışıqlarda və razılaşmalarda bu dillərdən istifadə olunur. "Beynəlxalq dil" termini ilk dəfə qərb ölkələrində yaranmışdır. Bunun əsasını avropa dillərinin beynəlmiləşməsi və assimilyasiyası təşkil edir. Hər bir beynəlxalq dil öz strukturunun sadəliyinə görə, öyrənmə prosesinin asanlığına görə beynəlxalq dil kimi qəbul olunmuşdur. Şərqdə isə bu prosses bir qədər sonra inkişaf etmişdir. Yaponiya, Çin, Türkiyə, Misir, Əlcəzair, Hindistan beynəlxalq dillərin yaranmasına böyük marağı olan şərq dövlətləri olmuşlar.

Əlbəttə, iqtisadi, siyasi və mədəni inkişafın mərkəzi olan bu dövlətlərin dünya ictimaiyyətinə olan təsiri beynəlxalq münasibətlər yaratmaqla yanaşı beynəlxalq dilin vacibliyini də irəli sürmüşdür. Hər bir ölkə öz yeniliklərini beynəlxalq dil vasitəsi ilə dünyaya bəyan edir. Qarşılıqlı təcrübə mübadiləsi aparmaq, mədəni və elmi nəaliyyətlərin hər millətin və xalqın istifadə etməsinə beynəlxalq dillər böyük yol açır. Məhz buna görə də hərtərəfli inkişaf etmək üçün dünyamız və ölkəmiz haqqında məlumatları öz ana dilimizdə almaqla yanaşı, bu həqiqətlərin dünya ictimaiyyəti ilə müzakirəsinə nail olmaq üçün tədris olunan fənlər arasına xarici dil fənni də əlavə olunur.

Bədii və elmi əsərlərin və dünya klassiklərinin qiymətli nümunələrinin ikitərəfli tərcüməsi, həmçinin bir ölkədən digərinə yayılması beynəlxalq dillərdən hər hansı birini bilməyi tələb edir. Bunun üçün müstəqil Azərbaycanımızda xarici dilin tədrisinə böyük diqqət yetirilir. Xarici dillərə maraq günü-gündən artır. Bəzən elə hallara rast gəlirik ki, xarici dildə tədris alan tələbələri ağız büzərək qəbul edirlər və onları ana dilində oxumadıqlarına görə tənqid edirlər. Əlbəttə, bunu bir mənalı başa düşmək olmaz. Doğurdan da elələri var ki, xarici dilə yiyələndikdən sonra ana dilinə biganə yanaşaraq özünü "səviyyəli insan" simasında aparır. Xarici dil bu nöqteyi-nəzərdən deyil, başqa məqsədlər üçün istifadə olunmalıdır. Xarici dil bilmək dünya kütləvi informasiya vasitələrinin təbliq etdikləri məlumatların düzgünlüyünün nəzarətçisi olmaq imkanı yaradır. Nər bir ziyalı xarici dildə həm danışıq, həm də peşəyönlü nitq bacarığına malik olmalıdır. Əgər yaratdığınız əsərlər haqqında dünya ictimaiyyətinə verilən düzgün izahatdan və söylənilən fikirlərdən xəbərdar olmaq istəsəniz ocnəbi dilin əhəmiyyətini anlayacaqsınız. Əlbəttə bu işdə tərcüməçilərin böyük rolunu qeyd etməmək olmaz. Onlar bədii və elmi əsərlərin tərcüməsi zamanı filoloji qanunauyğunluqları əsas tutaraq hər şeyi aydın və düzgün tərcümə edib ictimaiyyətin ixtiyarına verirlər. Məhz belə bir zəhmətin nəticəsidir ki, dünya ədəbiyyatı haqqında fikir söyləmək qabiliyyətinə malik ola bilmişik. Hər hansı bir xarici dilin tədrisi filoloq dilçilərdən dilin struktur mexanizmini dərindən bilib onu qarşılıqlı şəkildə düzgün təlim etmək bacarığını tələb edir. Belə

Ünsiyyət insan cəmiyyətinin mövcud olduğu ilk dövrlərindən etibarən fərdlər arasında fikir mübadiləsi yaratmaq ehtiyacından əmələ gəlmişdir. İlk insan qruplarında səslər, mimika və jestlərlə kifayətlənən ünsiyyət illər keçdikcə özünün geniş forması olan dil vasitəsi ilə həyata keçirilmişdir. Əlbəttə, dilsiz təbiət və cəmiyyət qanunlarını hərtərəfli müzakirə etmək mümkün olmazdı.

məhsuldar təlim nəticəsində ocnəbi dili düzgün öyrənmək olar.

Əgər canlı nitqdən danışırıqsa tərcüməçilərin köməyinə ehtiyacımız olsa belə, hər şeyi onların ixtiyarına vermək düzgün olmazdı. Nitqin gözəlliyi, təbiiliyi ola bilsin ki, tərcüməçi tərəfindən çox soyuq ötürülsün. Bizdə belə bir deyim var: "Yaradıcı insanın yaratdığı əsər onun övladıdır." Axı övlad haqqında valideyndən başqa kim daha düzgün və üroklə danışa bilər. Bədii tərcümələrdən fərqli olaraq canlı nitq prosesi zamanı ziyalı insanların öz ocnəbi məsləkdaşları ilə canlı ünsiyyətə girə bilmələri olduqca təqdirəlayiq sayıla bilər. Düzdür rəsmi yığıncaqlarda, müasir tərcümə qurğularının mövcud olduğu yerlərdə ana dilimizdə nitqlər söyləyib, öz doğma dilimizi yad qulaqlara eşitdirmək hamımızın borcudur. Biz dəfələrlə prezidentimizin və dövlət nümayəndələrimizin dünya müzakirə salonlarında olan ana dilimizdəki çıxışlarının şahidi olmuşuq. Hərçənd onların xarici dildə danışa bildiklərinə əminik. Siyasi xadimlərimizin, iqtisadiyyat və mədəniyyət sahəsində çalışan ziyalılarımızın canlı dünya müzakirələrinə qoşulması müasir dövrün tələbidir.

Bu gün müstəqil Azərbaycanımız öz qapılarını dünya iqtisadi, siyasi və mədəni əlaqələrinə geniş açdığı bir dövrdə beynəlxaql dillərə yiyələnmək istəyi hamı tərəfindən həvəslə qarşılanır. Ölkəmizin hər bir sahəsində xarici ölkə nümayəndələri ilə aparılan bilik mübadiləsi neçə-nəcə nailiyyətlərə yol açmışdır. Bu işdə gənc nəslin nümayəndələri daha aktiv və fəal olmalıdırlar. Dünya təcrübələrinə əsaslanaraq demək olar ki, xarici dil öyrənmək heç vaxt gec deyil. Bunun üçün dilin əsaslarına yiyələnib peşəyönümlü leksik söz ehtiyatına malik olmaq, söz və ifadələrin köməyi ilə müzakirə və söhbətlər aparıb qarşındakı həmsöhbətini başa düşmək qabiliyyətini həmişə artırmağa çalışmalıyıq.

Xarici dili tədris etdiyim Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti gələcəyin mədəniyyət və incəsənət kadrlarının təlim və tərbiyəsi ilə məşğul olur. Universitetin kollektivi gənclərə öz seçdikləri peşələrinin sirlərini öyrədir. Onları Azərbaycan mədəniyyətinin layiqli davamçıları kimi yetişdirməyə çalışırlar. Sənət dərsləri ilə yanaşı xarici dilin tədrisi Xarici Dillər kafedrasının müdiri, f.e.n. dos. S.Zeynalova və müəllimlər tərəfindən böyük əzmlə aparılır. Dərs prosesi zamanı tədris etdiyimiz dilin fonetik, qrammatik və leksik qanunlarını daha da dərindən öyrənməklə yanaşı incəsənətin bütün sahələrinə aid mətn və dialoqlar üzərində iş aparırıq. Tələbələri kino, teatr, nəşriyyat, rəssamlıq və s. sahələrdə işləmə biləcək söz və sözbirləşmələri ilə tanış edirik. Analiz edilmiş mətnlər ətrafında canlı dioloq və müzakirələr aparır, xarici dildə fikir mübadiləsinə istiqamət veririk. Xarici dildə mahnı və şerlərin ifası tələbələrdə ocnəbi dilə böyük maraq oyadır. Tədris olunan dilin yaddaqalan və maraqlı tədrisi üçün auditoriyada isti, canlı danışıq mühiti yaradırıq. CD və audio kassetlər, əyani vəsaitlər lazım olan situativ mühitlər yaratmağa kömək edir. Azərbaycan və xarici ölkə klassiklərinin əsərlərində nümunələri tələblərin ifasında ana dili və xarici dildə səsləndiririk. Onların gələcəkdə xarici ölkə həmkarları ilə ünsiyyət yaratmaq keyfiyyətinə malik olmaları üçün yollar axtarıb işləyirik. Qoy müstəqillik yolunda böyük uğurla addımlayan Azərbaycanımız savadlı mədəni kadrları ilə dünyada təmsil olunsun. Əlbəttə, bu tələbələrdən daha çalışqan və öz tələbə həyatlarına məsuliyyətlə yanaşmağı tələb edir. Biz müəllimlər bu işdə onlara hər zaman dəstək olmağa hazırıq.

Bəli dilimiz Azərbaycan dili, vətənimiz Azərbaycandır. Ömrümüz boyu xarici dil öyrənsək də bizə Ana dilimiz qədər əziz və doğma ola bilməz. Ana dilinə məhəbbət, Vətənə məhəbbət deməkdir. Ana dilinimiz xalqımızın varlığını təsdiqləyən başlıca şərtdir. Xalqımızın qabaqcıl adamları dilimizi sevmiş və ona dərin məhəbbət bəsləmişlər. Gəlin öz ana dilimizə həmişə hörmətlə yanaşaq və onun inkişafı üçün lazımı işlər görək. Çünki bu dil bizim övladlarımızın və gələcək nəs-

Ədəbiyyat

1. A.V.Petrovski. "Ümumi psixologiya"
2. Ə.S. Bayramov. "Sosial psixologiya"
3. "Headway". Oxford University press
4. Ş. Sədiyev. "Dil haqqında hekayələr"
5. A.Məmmədov , A.Axundov. "Dilçiliyə giriş"
6. Н.В.Некрасов. «Международный язык и народы востока»

Summary

Comm unication with foreign colleagues

It is very important to know one of the international languages. To get wide information about the world's news is the demand of the modern life. Every educated man ought to know one of the international languages. It will help them to understand the languages of their colleagues. To know the international languages is the window to the world's achievements. We must do our best for learning the foreign languages.

Резюме

Значимость международных языков в общении с иностранными коллегами

Владение родным и международными языками является необходимым условием существования в глобализованном мире. Владение одним из языков международного общения необходимо творческому человеку для ведения живого естественного диалога .Это важно для более точного понимания между коллегами из разных стран.